*24 noyabr 2004-cü il*
***Sabit Bağırov:***

**Hörmətli xanımlar və cənablar,**

Bu günkü hadisəni yəqin ki, tarixi hadisə kimi qiymətləndirmək olar. Həm ona görə ki, ilk dəfə hökumət, qeyri-hökumət təşkilatları və şirkətlərin səlahiyyətli nümayəndələri razılığa gələrək Memorandum kimi vacib sənədin altında birgə imza atırlar, həm də ona görə ki, Azərbaycan neft sənayesində sistemli şəffaflığa doğru ilk addım atılır. Bundan sonra, ictimaiyyətimiz mütəmadi şəkildə ildə iki dəfə Azərbaycan Dövlət Büdcəsinin və Dövlət Neft Fondunun təbii sərvətlərimizin istismarından əldə etdiyi gəlirlər barədə məlumat əldə edə biləcək. Bu günə qədər də şirkətlər tərəfindən ara-sıra bəzi məlumatlar aşkar edilirdi. Lakin onlar bir çox hallarda pərakəndə və qeyri-sistemli olurdu. Hökumət isə yalnız Dövlət Neft Fondunun gəlirlərini elan edirdi, digər gəlir növləri isə açıqlanmırdı.

Açığını deyim ki, imzaladığımız Memorandum təmsil etdiyim ictimai birliklərin bütün arzularına tam yaxın ola bilmədi. Səbəblər deyərdim ki, daha çox obyektiv xarakter daşıyır. Biz çox müzakirələr apardıq mübahisələrimiz də oldu, həm Memorandumun digər tərəfləri ilə, həm də Koalisiyanın daxilində. Onu da qeyd edim ki, bir sıra təkliflərimiz qəbulolunmamış qalmadı. Biz daha çox nailiyyətlər əldə etmək istəyirdik lakin bir qisminə nail olduq. Lakin yenə də təkrar edirəm imzalanan sənəd şəffaflığa doğru ilk və mühüm addımdır. Və biz inanırıq ki, bizim üçtərəfli əməkdaşlığımız davam edəcək və birgə səylərimiz nəticəsində mədən sənayesindəki şəffaflıq getdikcə genişlənəcək. Ümid edirik ki, bu istiqamətdə mədən sənayesində şəffaflıq təşəbbüsünün müəllifi Britaniya Hökuməti və bu təşəbbüsə könüllü qoşulan Azərbaycan Hökuməti də öz səylərini davam edəcəklər. Ümidlərimizi gücləndirən bir də odur ki, artıq MSŞT beynəlxalq təşkilatlar və maliyyə institutları tərəfindən də güclü şəkildə dəstəklənir. Mən xüsusilə Açıq Cəmiyyət İnstitutunun dəstəyini qeyd etmək istərdim.

Çıxışımı yekunlaşdıraraq və fürsətdən istifadə edərək mən Memorandumun digər tərəflərinə Koalisiyamızın adından əməkdaşlığa görə təşəkkürümüzü bildirmək istərdim. Eyni zamanda bu günkü şərəfli missiyanı mənə həvalə edən bütün ictimai birliklərin rəhbərlərinə təşəkkür edirəm.

Diqqətinizə görə çox sağolun.